# Gənc cüdoçularımızdan 8 medal



U-23 gənclər arasında cüdo üzrə Azərbaycan birinciliyində "Qəbələ" İdman Klubunun cüdoçuları uğurla çıxış edib.

"Sərhədçi" İdman Olimpiya Mərkəzində təşkil olunan birincilikdə idmançılarımız 8 medal qazanıb. Təmsilçilərimiz oğlanların mübarizəsində 3 qızıl, 2 gümüş və 3 bürünc medal əldə ediblər.

İsmayıl İbrahimov (66 kq), Fəqan Quluzadə (81 kq) və Vasif Şərbətli (100 kq) bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Finala qədər irəliləyən Elçin Hüseynov (66 kq) və Rüfət İsmayılov (90 kq) yalnız həlledici görüşdə uduzaraq, gümüş mükafata yiyələniblər. Həsil Cəfərov (73 kq), İman Yusifov (100 kq) və Camal Feyziyev (+100 kq) birinciliyin bürünc mükafatçısı olublar.

46 klubdan 333 idmançının qatıldığı (288 oğlan, 45 qız) yarışda "Qəbələ" komanda hesabında 2-ci yeri tutub.

**«Qəbələ».**

# Buraxılış imtahanları keçirilib



İyunun 30-da Dövlət İmtahan Mərkəzi (DİM) ümumtəhsil müəssisələrinin buraxılış siniflərində təhsil alan (IX və XI siniflərdə) şagirdlər üçün mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları keçirib.

Respublika üzrə ümumilikdə 57910 şagird, o cümlədən 32388 nəfər IX sinif üzrə, 25522 nəfər XI sinif üzrə imtahan verib.

Həmin gün Qəbələdəki imtahanlarda isə 1292 şagird iştirak edib.

**"Qəbələ".**

# Qaliblər müəyyənləşib

Azərbaycan Sərhəd Mühafizəsinin 98-ci ildönümünə həsr olunmuş, üç mərhələdə keçirilən hərbi idman oyunlarında bu il 27 sərhədyanı rayonun 141 məktəbinin 705 şagirdi iştirak edib. İlk iki mərhələnin yekunlarına görə 8 komanda - o cümlədən rayonumuzun Abrıx kənd tam orta məktəbinin "Abrıx" komandası da finala vəsiqə qazanıb.

Oyunların final mərhələsi iyun ayının 19-dan 24-dək Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsinin Astara sərhəd komendantlığında keçirilib. Oyun iştirakçıları üçün yaradılmış şərait məktəblilərə öz bacarıqlarını tam və sərbəst şəkildə nümayiş etdirməyə imkan verib.

Final mərhələsində komandalar "Sıra hazırlığı", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitələrinə baxışın təşkili", "Avtomat silahın sökülməsi və yığılması", "Sərhəd pozucusunun yaxalanması və təxliyəsi", "Tüfəngdən hədəfə atəş açmaq", "Maskalanma", "Yaralanmış sərhəd naryadı üzvünə ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi" və "Ləpirçilik" mərhələlərində öz bacarıqlarını nümayiş etdiriblər.

Tədbirdə qaliblər kubok, diplom və qiymətli hədiyyələr ilə mükafatlandırılıblar.

**✍ Fəzair ABDULLAYEV, Abrıx kənd tam orta məktəbinin müəllimi.**

# Şüyüd təsirli müalicəvi xüsusiyyətlərə malikdir

Adi şüyüd və onun toxumları çox təsirli müalicəvi xüsusiyyətlərə malikdir. Məhz bu səbəbdən şüyüd və onun toxumları əczaçılıqda müxtəlif dərman preparatlarının tərkibində istifadə olunur.

Şüyüd xüsusilə mədə-bağırsaq sistemi üçün faydalıdır - iştahanı artırır, köplə mübarizə aparır, bağırsaqların fəaliyyətini yaxşılaşdırır, bağırsaqlara yüngül işlədici təsir göstərir.

Bunun üçün 1/2 çay qaşığı şüyüd toxumu 1/2 stəkan qaynar suda 30 dəqiqə ərzində dəmlənilir, yaxşı süzülür və gün ərzində 3-4 dəfə 1 / 2-1 çay qaşığı miqdarında uşağa verilir. Dəmləməni hər gün hazırlamaq lazımdır.

Şüyüd toxumu dəmləməsi təkcə uşaqlarda deyil, həm də böyüklərdə təsirli köp əleyhinə vasitə kimi istifadə oluna bilər.

Şüyüd antioksidant maddələrlə zəngindir, orqanizmi ziyanlı maddələrdən təmizləyir, xolesterinlə mübarizə aparır.

Şüyüd spazmolitik xüsusiyyətlərə də malikdir. Bağırsaq, mədə spazmı zamanı, spazmla bağlı olan baş ağrıları zamanı şüyüd toxumu dəmləməsi çox tez və yaxşı kömək edir.

Şüyüd toxumu həmçinin bəlğəmgətirici və iltihab əleyhinə xüsusiyyətlərə malikdir. Öskürək, bronxit zamanı 1 xörək qaşığı şüyüd toxumu 1 stəkan qaynar suda 1/2 saat ərzində dəmləyin (termosda dəmləmək daha yaxşıdır). Qəbuldan əvvəl dəmləməyə 1/2 çay qaşığı bal əlavə edin.



Şüyüd toxumu dəmləməsi insanın sinir sisteminə də çox müsbət təsir edir - sakitləşdirir, yuxusuzluqla mübarizədə kömək edir, baş ağrılarını azaldır. Şüyüd həmçinin ödqovucu təsirə malikdir, qara ciyərin fəaliyyətinə müsbət təsir edir.

Şüyüd toxumu dəmləməsi müxtəlif böyrək, sidik kisəsi, sidik yolları iltihabları zamanı çox yaxşı müalicəvi təsir edir. Bu dəmləmə xüsusilə sistit (sidik kisəsi iltihabı) zamanı tez-tez istifadə olunur. Şüyüd toxumu dəmləməsi sidikqovucu təsir edir, iltihabı azaldır. Təbii ki, vasitə əsas müalicə ilə yanaşı istifadə olunmalıdır. Belə hesab olunur ki, şüyüd toxumu dəmləməsi analarda laktasiyanı (südün ifrazı) artırır.

Sidikqovucu təsirə malik olan şüyüd toxumu dəmləməsi həmçinin arterial təzyiqin normallaşmasına kömək edir. Arterial hipertenziyadan (yüksək təzyiq) əziyyət çəkən insanlar bu dəmləməni əsas müalicə ilə yanaşı köməkçi müalicəvi vasitə kimi istifadə edə bilərlər. Hamilə qadınlarda şüyüd toxumu dəmləməsi toksikoz zamanı istifadə olunur (ürəkbulanmanı azaldır). Həmçinin bu dəmləmə hamilə qadınları tez-tez narahat edən ödemlərin (qabarıqlıq) azalmasına kömək edir.




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

*2017-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.*

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## İTMİŞDİR

Şuşa şəhər sakini **Bayramova Raya Əliş qızına** məxsus **əmək kitabçası** itdiyi üçün etibarsız sayılır.

Qəbələ şəhər sakini **Əzizov Bilal Bilal oğluna** Qəbələ Bələdiyyəsi tərəfindən şəhərin Azadlıq küçəsində torpaq sahəsinin verilməsinə dair bələdiyyənin 28 mart 2003-cü il tarixli, 03 saylı **iclas protokolundan çıxarış, torpağın alqı-satqısı barədə 22 aprel 2003-cü il tarixli 217 nömrəli akt, torpaq sahəsinin yerquruluşu planı və torpaqda aparılan tikintiyə, icazə verilməsi haqqında rayon icra hakimiyyəti başçısının 15 may 2003-cü il tarixli 95 nömrəli sərəncamı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Rayon Ərazi idarəs tərəfindən 28 dekabr 2007-ci il tarixdə Qəbələ şəhər sakini **Məmmədova Münəvvər Bayram qızına** verilmiş MN seriyalı 0007303 nömrəli (reyestr nömrəsi 406013003572-10301, qeydiyyat nömrəsi 190706746) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri üzrə Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Ərazi İdarəsi tərəfindən **«PMD Group» MMC-yə** verilmiş 17 dekabr 2015-ci il tarixli RX seriyalı 0773704 nömrəli (qeydiyyat nömrəsi 1915008700) **Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi iş yoldaşları **Namiq Məmmədova** anası

**MƏKKƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzetinin kollektivi RİH-nin əməkdaşı **Namiq Məmmədova** anası

**MƏKKƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu Uludaş kənd tam orta məktəbin direktoru **Sadəddin Eldarova** əzizi

**ELMİRA XANIMIN**

vəfatı ilə əlaqədar kədərinə şərik olur və dərin hüznlə başsağlığı verir.


Redaktor: Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.